AZERCELL ilə əməkdaşlıq edən 3-cü şəxslərə aid **DAVRANIŞ MƏCƏLLƏSİ**

## GİRİŞ

**QEYD:** 3-cü şəxslər dedikdə "Azercell Telekom" MMC-nin təchizatçıları (həmçinin strateji təchizatçılar), tərəfdaşları, fərdi sahibkarlar və hüquqi şəxslər nəzərdə tutulur.

"Azercell Telekom" MMC (bundan sonra "Azercell") telekommunikasiya xidmətlərinin aparıcı təchizatçısı olmaqla, sosial və iqtisadi infrastrukturun mühüm bir iştirakçısıdır.

Azercell ilə əməkdaşlıq edən 3-cü şəxslərə aid Davranış Məcəlləsini qəbul etməkdə məqsədimiz təchizatçıları və tərəfdaşları işgüzar standartlarımız və dayanıqlılıqla bağlı tələblərimiz barədə xəbərdar etməkdir. Bütün işçilərimiz Etika və Davranış Məcəlləsinə riayət etməli olduqları kimi, Azercell-ilə əməkdaşlıq edən 3-cü şəxslər bu Davranış Məcəlləsinin tələblərinə riayət etməyə görə cavabdehdirlər. Qüvvədə olan qanunvericiliyə zidd olmamaq şərti ilə bu öhdəlik 3-cü şəxslərə aid Davranış Məcəlləsinin normativ-hüquqi aktlardan əlavə qaydalara da şamil edilir.

Hazırkı 3-cü şəxslərə aid Davranış Məcəlləsinin tələbləri Azercell ilə əməkdaşlığa cəlb edilən sahibkarlıq fəaliyyəti göstərən subyektlər onların istənilən statuslu işçilərinə, subpodratçılarına və həmin əməkdaşlığa cəlb edilən bütün digər şəxslərə şamil edilir.

Azercell-in hər bir təchizatçısı iş prosesinin 3-cü şəxslərə aid Davranış Məcəlləsinə uyğun şəkildə həyata keçirilməsini təmin etməli və tələb olunan zaman Azercell tərəfindən təşkil edilən qiymətləndirmə prosesində iştirak etməlidir. Təchizatçının 3-cü şəxsə aid Davranış Məcəlləsinin tələblərinə riayət edilməsini yoxlamaq hüququna malikdir. Təchizatçının fəaliyyətində hər hansı uyğunsuzluq aşkar edildikdə, Təchizatçı uyğunsuzluğun aradan qaldırılması üçün hazırlanan tədbirlər planını qarşılıqlı razılaşdırılmış müddət ərzində "Azercell"-ə təsdiq məqsədilə təqdim etməli və təsdiq edildikdən sonra həmin tədbirləri həyata keçirməlidir.

## 1. SOSİAL TƏLƏBLƏR

### 1.1. İNSAN HÜQUQLARI

3-cü şəxs və onun subpodratçıları özlərinin bütün işçiləri ilə hörmət və ləyaqətlə davranmalıdırlar və onların insan hüquqlarının qorunmasını təmin etməlidirlər, həmin şəxslərin hüquqi maarifləndirilməsini təşkil etməlidirlər.

İşçilərin, müştərilərin və digər tərəfdaşların şəxsi həyat toxunulmazlığının qorunmasına, onların ifadə azadlığına xüsusi diqqət yetirilməlidir.

İrqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verilir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq və ya ayrı-seçkiliyə yol vermək qadağandır.

İşə qəbul üzrə qanunla qoyulan minimal yaş həddinə çatmamış heç bir şəxs ilə əmək münasibətləri yaradılmamalıdır, müxtəlif digər kateqoriyalı işçilər ilə bağlı əmək qanunvericiliyinin tələblərinə riayət edilməlidir.

## 1.2. ƏMƏK HÜQUQLARI

3-cü şəxslər istənilən statuslu işçiləri ilə aidiyyəti ölkələrin qanunvericiliyində müəyyən edilən tələblərə cavab verən və aydın dildə tərtib edilmiş yazılı əmək müqavilələrini bağlamalıdırlar. Əmək Müqavilələrində əmək şəraitini əks edən şərtlər, o cümlədən vəzifə adı və öhdəlikləri, aylıq vəzifə maaşı və onun ödənilməsi qaydaları, iş vaxtı, həmçinin əlavə iş vaxtı ilə bağlı ödəniləcək vəsaitlər, sosial təminatlar ilə bağlı şərtlər, əmək müqaviləsinin ləğv edilməsi qaydaları və əmək münasibətlərini tənzimləyən digər şərtlər öz əksini tapmalıdır. Həftəlik iş vaxtı, həmçinin əlavə iş vaxtı aidiyyəti ölkələrin qanunvericiliyində müəyyən edilən normalardan çox olmamalı.

Əmək haqqı və şərtləri ədalətli olmalı və əsas ehtiyacları ödəməlidir ki, bu da müavinətlər və imtiyazlar daxil olmaqla yerli qanunvericiliklə müəyyən edilmiş minimum əmək haqqından az olmamalıdır.

İşçilərə Əmək Müqavilələrinin şərtləri ilə bağlı zəruri açıqlamalar və izahatlar verilməlidir. Həmçinin işçilər üçün təqibə və təzyiqə məruz qalmadan təklif və şikayətləri ilə bağlı sərbəst müraciət etmək imkanları yaradılmalıdır və bu kimi müraciətlər təşviq olunmalıdırlar.

İşçilər üçün sağlam, sanitar normalara cavab verən, təhlükəsiz, həmçinin əsas ehtiyaclarını qarşılayan iş mühiti və şəraiti təmin edilməlidir.

## 1.3. ƏMƏYİN MÜHAFİZƏSİ

3-cü şəxslər işçiləri sağlam və təhlükəsiz iş şərait ilə təmin etməlidirlər. 3-cü şəxslər əməyin mühafizəsinin aşağıda qeyd edilən əsas prinsiplərinə riayət edərək həmin istiqamətlərdə effektiv fəaliyyət göstərməlidirlər:

- əmək şəraitinin və əməyin mühafizəsinin davamlı olaraq yaxşılaşdırılması;
- istehsal qəzalarının, xəsarətlərin və peşə xəstəliklərinin qarşısının alınmasına yönəlik preventiv tədbirlərin davamlı görülməsi;
- işçinin həyatının və sağlamlığının kommersiya fəaliyyətinin nəticələrindən üstün tutulması;
- işçilərin xüsusi geyim və digər müxtəlif fərdi mühafizə vasitələri ilə təmin edilməsi;
- əməyin mühafizəsi sahəsinə aid məsələlər ilə bağlı davamlı təlimlərin keçirilməsi, işçilərin biliklərinin artırılması;
- istehsalatda bədbəxt hadisə nəticəsində yaxud peşə xəstəlikləri ilə əlaqədar zərər çəkmiş işçilərin maddi, sosial və mənəvi maraqlarının müdafiəsi;
- aidiyyəti ölkələrin qanunvericiliyində, həmçinin hüquqi qüvvəyə malik olan beynəlxalq normalarda nəzərdə tutulan milli və beynəlxalq standartlara, o cümlədən OHSAS 45001/18001 standartına riayət etmək.

## 2. KORRUPSİYAYA QARŞI TƏLƏBLƏR

Korrupsiyanın istənilən növü, o cümlədən hədə-qorxu ilə tələb etmə, rüşvət alma yaxud vermə, dələduzluq, çirkli pulların yuyulması və sair qeyri-qanuni əməllər qəti şəkildə qadağandır.

Heç kəs əmək və sahibkarlıq fəaliyyətinə təsir göstərmək və/və ya şəxsi mənfəət əldə etmək üçün pul mükafatı, hədiyyə və ya digər maddi faydanı, imtiyazları birbaşa və ya dolayı yolla təklif, tələb, təqdim və

ya qəbul etməməlidirlər. Bu tələblər (həmçinin İSO-37001 standartı üzrə tələblər) həm Azercell, həm də 3-cü şəxs tərəfindən birgə fəaliyyətə cəlb edilən bütün şəxslərə şamil edilir.

Azercell-in işçilərinə satınalma prosesləri zamanı şirkət daxili qaydalarda nəzərdə tutulmayan hər hansı hədiyyə almaq və ya vermək qəti qadağandır.

Azercell-n işçiləri yalnız daxili qaydalarda yol verilən, biznes əhəmiyyətini açıq-aydın şəkildə əks etdirən, biznes əlaqələrinin mahiyyətinə uyğun olan, biznes qonaqpərvərlik ən-ənələrinə uyğun məhdud dəyərli hədiyyələri təklif və qəbul edə bilərlər.

Haqlı rəqabət qaydalarına riayət edilməli və şəxsi əlaqələr və maraqlar biznes qərarlarına təsir etməməlidir.

Dünya təcrübəsinə uyğun tərtib edilmiş korrupsiyaya qarşı daxili mübarizə proqramı tətbiq edilməlidir. Proqram, o cümlədən müvafiq tədris və məlumatlar şəffaf və effektiv şəkildə tətbiq olunmalıdır.

## 3. ƏTRAF MÜHİTIN QORUNMASINA DAİR TƏLƏBLƏR

3-cü şəxs ətraf mühitin idarə edilməsi üzrə ISO 14001 və ya ekvivalent milli və/və ya beynəlxalq standart(lar)a cavab verən bir sistemə malik olmalıdır. Onlar öz fəaliyyətindən irəli gələn ətraf mühitə mənfi təsirləri azaldmalıdır, ətraf mühitdə mövcud olan flora və faunanın qorunması və inkişaf etməsi üçün zəruri tədbirləri görməlidir.

3-cü şəxs bərpa olunan təbii enerji mənbələrindən istifadəyə üstünlük verməli, xüsusən də həssas ərazilərdə su və digər təbii ehtiyatların, qaynaqların sərfiyyatının effektivliyini artırmalıdır.

Elektron tullantılar daxil olmaqla, emissiyaların, çirkab suların, çirklənmələrin və tullantıların monitorinqi prosesi yaradılmalıdır. Bütün tullantıların toplanması, daşınması və ləğv edilməsi ilə bağlı fəaliyyət lazımi qaydada təşkil edilməli və bu fəaliyyətə ciddi nəzarət təmin olunmalıdır.

3-cü şəxs quru, dəniz və dəmir yollarından istifadə edərək nəqliyyatın ətraf mühitə təsirini mümkün qədər azaltmağa çalışmalıdır. Malların daşınması və Azercell şirkətinə xidmət göstərilməsi zamanı yanacağa qənaət edən nəqliyyat vasitələrindən istifadəyə üstünlük verilməlisi tövsiyə olunur.

3-cü şəxs kimyəvi və digər maddələrin istifadəsini müntəzəm şəkildə qiymətləndirməli və onları daha az təhlükəli alternativlərlə əvəz ediməsinin mümkünlüyünü araşdırmalıdır. Kimyəvi maddələr ətraf mühitə mənfi təsirin minimuma endirilməsini təmin etmək üçün onlardan təhlükəsiz və düzgün şəkildə istifadə edilməlidir. 3-cü şəxs tərəfindən istifadə olunan kimyəvi maddələr sənədləşdirilməlidir.

3-cü şəxs Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilmiş təhlükəli maddələrdən istifadə etməməlidir.

Ekoloji və sosial fayda verən məhsul və xidmətlərdə innovativ məsələlər, məs. eko-dizayn, xüsusilə təşviq edilməlir.

Antenalar, qüllələr və qurğuların quraşdırılması və yerləşdirilməsi zamanı elektromaqnit dalğalar, səs-küy, görünüş pozuntuları, mülkiyyət hüquqları, aidiyyəti standartlarına uyğunluq, ətraf mühitə təsir və ictimai sağlamlıq və təhlükəsizlik amilləri nəzərə alınmalıdır.

## 4. UYĞUNLUĞA DAİR TƏLƏBLƏR

3-cü şəxslərə aid Davranış Məcəlləsi ilə müəyyən edilən şərtlər təchizatçılar ilə müxtəlif tərəfdaşları arasında bağlanan sazişlərdə öz əksini tapmalı və 3-cü şəxslər, tələb edildikdə həmin tərəfdaşlar Azercell tərəfindən təşkil edilən özünü qiymətləndirmə prosesində iştirak etməlidir. Azercell 3-cü şəxslər tərəfindən

Davranış Məcəlləsinin tələblərinə həm ofislərdə, həm də ofislərdən kənarda riayət olunmasını, o cümlədən mövcud olan və planlaşdırılan fəaliyyət üzrə həmin tələblərə uyğunluğunu yoxlamaq hüququna malikdir.

3-cü şəxslər, Azercell tərəfindən müxtəlif hesabatların hazırlanması üçün öz fəaliyyətləri ilə bağlı Azercell tərəfindən tələb edilən müvafiq məlumatları təqdim etməlidir.

3-cü şəxslər tərəfindən Davranış Məcəlləsində müəyyən edilmiş tələblər yerinə yetirilmədikdə Azercell həmin şəxslərlə bağlanan müqavilələrə xitam vermək hüququna malik olacaqdır.